# XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ

Xalqımızın çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikir tarixində mütəfəkkir şair İmadəddin Nəsiminin zəngin irsi mənəvi-əxlaqi və bədii dəyərilə yaşamaqdadır.

Şairin irsinin ölkəmizdə sistemli tədqiqi və təbliği ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə şairin 600 illik yubileyinin keçirildiyi vaxta təsadüf edir. Böyük söz ustasının 600 illiyinin YUNESKO-nun görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileyləri siyahısına daxil edildiyi və beynəlxalq miqyasda qeyd olunduğu həmin dövrdən etibarən Nəsimi ilə bağlı çox sayda araşdırmalar aparılmışdır. Qüdrətli şairin yaradıcılığının üzə çıxarılan əlyazma nüsxələri əsasında öyrənilməsi Azərbaycan dili və ədəbiyyatı tarixinin tədqiqində yeni mərhələ açmışdır. Nəsiminin əsərləri ölkəmizdə dəfələrlə işıq üzü görmüşdür. Şairin əsərləri Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamına əsasən, kütləvi tirajla nəşr olunaraq ölkə kitabxanalarına hədiyyə edilmişdir.

Xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycan KP MK-nın Birinci katibi kimi 1970-ci ildə Suriya Ərəb Respublikasında səfərdə olur. Ulu Öndər Prezident Hafiz ƏsədəHələb şəhərinə getmək və İmadəddin Nəsiminin məzarını ziyarət etmək istədiyini bildirir. Azərbaycan rəhbərinin istəyi yerinə yetirilir. Lakin Nəsiminin qəbrini ziyarət etmək üçün bir müddət gözləmək lazım gəlir. Çünki yerli hakimiyyət orqanlarının nümayəndələri məzarı tapa bilmirdilər. Nəhayət, məzar tapılır, səliqəyə salınır, məzara xidmət edən şəxs ayırılır. Ondan sonra Ulu Öndər məzarı ziyarət edir.

Ulu Öndər Bakıya döndükdən sonra Nəsiminin tanıdılması, 600 illik yubileyinin keçirilməsi və kinofilm çəkilişi məsələlərini gündəmə gətirir. Nəsiminin yubileyinin keçirilməsi barədə məsələ Azərbaycan KP MK Bürosunun 1970-ci il 27 mart, 1971-ci il 24 mart, 29 aprel, 23 iyul tarixli iclaslarında müzakirə edilir. Bundan sonra Heydər Əliyevin Moskvaya, Sov. İKP MK-ya yazdığı məktubda xahiş edilirdi ki, Nəsiminin yubileyinin ümumittifaq və ümumdünya miqyasında qeyd edilməsi üçün SSRİ Nazirlər Sovetinə müvafiq göstərişlər verilsin və yubiley komissiyası yaradılsın. SSRİ Nazirlər Sovetinin sədri A.N.Kosıginin imzası ilə qəbul olunan bu məktuba qərar layihəsi də əlavə olunur.

Heydər Əliyevin tapşırığı ilə akademik Həmid Araslı və professor Araz Dadaşzadə Azərbaycanın valyuta fondu hesabına Suriyaya ezam edilirlər. Onlar Nəsiminin məzarının vəziyyəti ilə tanış olurlar və bərpası məsələsini qaldırırlar. Ulu öndər Heydər Əliyevin əməyi nəticəsində məzar bərpa edilir. Nəsiminin portretini yaratmaq üçün beynəlxalq müsabiqə elan edilir. Azərbaycan KP MK Bürosunun 1972-ci il 2 fevral, 1973-cü il 13 mart və 28 avqust tarixli iclaslarında həmin məsələ müzakirə edilir. Tədbirlər planı işlənib hazırlanır. 1973-cü ilin sentyabrında Azərbaycanda yubiley toplantısı keçirilir. Yubileyə dünyanın 29 ölkəsindən nümayəndələr gəlir. Heydər Əliyev onları qəbul edir. YUNESKO-nun "Kuryer" jurnalında Nəsimi haqqında geniş məqalə dərc olunur, əsərləri ingilis, fransız və başqa dillərə tərcümə edilir.

2017-ci ilin mayında Parisdə YUNESKO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyi qeyd edilmiş, 2018-ci ilin sentyabrında ölkəmizdə ilk dəfə Nəsimi - şeir, incəsənət və mənəviyyat festivalı keçirilmişdir.

“Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 11 yanvar 2019-cu il tarixli Sərəncamında qeyd olunur: “Nəsimi irsinin müasir humanitar düşüncənin tələbləri kontekstində aktuallığını, milli mədəni-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyətini nəzərə alaraq və Azərbaycan

Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram: 2019-cu il Azərbaycan Respublikasında "Nəsimi ili" elan edilsin.”




***Ötən illər ərzində Nəsiminin xatirəsinin əbədiləşdirilməsi istiqamətində silsilə tədbirlər həyata keçirilmiş və onun ədəbiyyatda, incəsənətdə parlaq obrazı yaradılmış, 1980-ci ildə ölkəmizin paytaxtında heykəli ucaldılmışdır.***

***Sumqayıtda İmadəddin Nəsiminin heykəli***






**“Çənlibel” parkında inşa olunan “Saatlar qülləsi”nin qarşısında qoyulan İmadəddin Nəsiminin heykəli**

**Kiyevdə Nəsiminin heykəltəraş Seyfəddin Qurbanov tərəfindən hazırlanan büstü (2019)**





**Moskvada İmadəddin Nəsiminin büstü - müəllif Mahmud Rüstəmov(2018)**



**Şamaxıda İmadəddin Nəsiminin büstü**



**Göyçay rayonunda**
**“Əbədiyaşar ədiblər” kompleksində Imadəddin Nəsiminin büstü**



**2019-cu ildə Şamaxının Meysəri kəndində ikinci Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalı çərçivəsində “Nəsiminin ruhu" heykəl-installyasiyasının açılışı olub.**

Heykəl-installyasiyanın müəllifi Rəşad Ələkbərov bu əsərin onun üçün də çox incə, zərif, yaradıcı təxəyyül tələb edən düşündürücü, həm də çox çətin olduğunu vurğulayaraq, hərtərəfli dəstək üçün əsərin sifarişçisi Heydər Əliyev Fonduna minnətdarlığını bildirib. O, "Nəsiminin ruhu” adlı heykəl-installyasiyanın İmadəddin Nəsiminin "Surəti gör bəyan ilə, çünki bəyanə sığmazam” beytindən qaynaqlanaraq yaratdığını qeyd edib.

**Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu -** 1932-ci ildə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun bazasında müstəqil Dil, Ədəbiyyat və İncəsənət İnstitutu, 1936-cı ildə birləşmiş Ədəbiyyat və Dil İnstitutu yaradılmışdır.

Azərbaycan Respublikasında dilçilik sahəsində başlıca elmi-tədqiqat mərkəzi kimi tanınan Dilçilik İnstitutu Azərbaycan Milli Elmlər Akademiyası ilə bir gündə - 1945-ci il martın 27-də yaradılmış və həmin il mayın 21-də təsdiq edilmiş və İctimai Elmlər Bölmə-sində yaradılmış dörd elmi tədqiqat institutundan biri olmuşdur. 1973-cü ildə Dilçilik İnstitutuna görkəmli Azərbaycan şairi Nəsiminin adı verilmişdir.

**İmadəddin Nəsimi adına planet -** Böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illiyi ilə əlaqədar Beynəlxalq Astronomiya İttifaqı (BAİ) kiçik planetlərdən birinə onun adının verilməsi barədə qərar qəbul edib.

Müvafiq vəsatət Azərbaycan astronomu, BAİ-nin üzvü, N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının baş elmi işçisi, AMEA-nın müxbir üzvü Əyyub Quliyev tərəfindən qaldırılıb.

Nəsimi planetinin kataloq nömrəsi 32939, hərəkət zonası isə Mars və Yupiter planetlərinin arasındakı asteroid qurşağıdır. Bu planet 1995-ci ilin oktyabrın 24-də Çexiya astronomları tərəfindən Klet rəsədxanasında aşkar edilib və uzun müddət 1995 UN2 şərti ad daşıyıb.

İndiyədək o, dünyanın müxtəlif rəsədxanalarında 807 dəfə müşahidə olunub.

**Nəsimi metro stansiyası -** 2006-cı ildən inşaatına başlanılmışdır və 2008-ci ilin oktyabrın 9-da istifadəyə verilmişdir.




**Nəsimi rayonu -** 1969-cu ildə Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində yaradılmışdır.

Nəsimi rayonu onu əhatə edən indiki Yasamal, Səbail və Nərimanov rayonlarının əraziləri hesabına yaradılmışdır.

Nəsimi rayonunu paytaxtın giriş qapısı da adlandırırlar. Belə ki, Bakının giriş qapıları sayılan Dəmiryolu Sərnişin Vağzalı və Beynəlxalq Şəhərlərarası Avtovağzal bu rayonda yerləşir.

Şəhər Metropoliteninin "28 May", "C.Cabbarlı", "20 Yanvar", "8 Noyabr" və "Əcəmi" stansiyaları da Nəsimi rayonu ərazisindədir.

**Nəsimikənd -** Azərbaycan Respublikasının Saatlı rayonunun inzibati ərazi vahidində kənd.

***Nəsimi adına məktəblər***

Naftalan şəhəri 1 saylı İmadədin Nəsimi adına tam orta məktəb
Daşkəsən şəhəri 1 saylı İmadədin Nəsimi adına şəhər orta məktəb
Sabirabad rayonu Nəsimi kənd tam orta məktəb
Samux rayonu İmadədin Nəsimi adına Ziyadlı kənd tam orta məktəb
Saatlı rayonu Nəsimikənd kənd orta məktəb
Balakən rayonu 2 saylı İmadədin Nəsimi adına tam orta məktəb

**Nəsimi festivali -** 2018-ci il 27-30 sentyabr tarixlərində Heydər Əliyev Fondunun təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalı keçirilib.

Şeir və sənətin yaşadılması məqsədi daşıyan festival Şərqin dahi şair və mütəfəkkirlərindən biri İmadəddin Nəsiminin fəlsəfi baxışlarını əks etdirən “Simadan – asimana” və onun öz kəlamından götürülən “Zərrə mənəm, günəş mənəm…” şüarları ilə keçirilib.

Tədbirin rəsmi açılış mərasimi də Heydər Əliyev Mərkəzində keçirilib. Konsert proqramında Nəsiminin şeirləri təqdim olunub, muğamlardan parçalar, XIII-XIV əsr görkəmli Azərbaycan musiqiçisi Əbdülqadir Marağayinin bəstələri üzərinə gənc və orta nəsil bəstəkarların Azərbaycan Milli Konservatoriyasının nəzdindəki “Əsrlərin sədası” qədim musiqi alətləri ansamblı üçün yeni işləmələri, dahi bəstəkar Fikrət Əmirovun “Nəsimi haqqında Dastan” əsəri, Azərbaycanın Əməkdar artisti Tünzalə Ağayevanın Nəsiminin sözlərinə bəstələdiyi “Dua” mahnısı səslənib. Konsertdə Azərbaycan əsilli, tanınmış britaniyalı müğənni Sami Yusif də çıxış edib.

**Moskvada “Nəsiminin mənəvi irsi orta əsrlər şərqinin tarixi-mədəni kontekstində” mövzusunda konfrans -** 2018-ci ildə Heydər Əliyev Fondunun Azərbaycanın Rusiyadakı

səfirliyinin dəstəyi ilə Moskvada təşkil etdiyi “Nəsimi – poeziya, incəsənət və mənəviyyat festivalı” çərçivəsində M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Asiya və Afrika Ölkələri İnstitutunda (MDU AAÖİ) “Nəsiminin mənəvi irsi orta əsrlər Şərqinin tarixi-mədəni kontekstində” mövzusunda beynəlxalq elmi-praktiki konfransın açılışı olub.

**İmadəddin Nəsiminin 650 illiyinə həsr olunmuş bədii qiraət müsabiqəsi -** Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) mütəfəkkir şair İmadəddin Nəsimiyə həsr olunan “Hüsnü-cəmal, əqli kamal” adlı ali məktəblərarası bədii qiraət müsabiqəsi keçirilmişdir.

***Yubileylər münasibətilə buraxılmış medallar***




**“Nəsiminin anadan olmasının 600 ili” Masaüstü medalı (1979-cu il)**




**Serbiya Kral Akademiyasının 2019-cu il 20 fevral tarixli qərarı ilə təsis olunmuş medal**

**Azərbaycan Yazıçılar Birliyinin Nəsimi adına şeir mükafatı -** İmadəddin Nəsimi adına şeir mükafatlarına Musa Yaqub, Vaqif Bayatlı Odər və Firuzə Məmmədli layiq görülüb.

**Adına buraxilmiş poçt zərfi və markalar -** Nəsiminin 650 illiyi münasibətilə 2 poçt markasından ibarət blok şəklində hazırlanıb. Blokun yuxarı hissəsindəki markada İmadəddin Nəsiminin silueti, aşağı hissədəki markada isə yazı lələyi təsvir edilib. Blokun ölçüsü 72x92 millimetr, markaların ölçüsü 51x36 millimetrdir. Dizayneri “Azərmarka”nın baş rəssamı Vüqar Əyyubov olan markalar 10 min ədəd tirajla çap edilib. Həmçinin 400 ədəd birinci gün zərfləri də hazırlanıb.

**Sumqayıtda Nəsimi adına Mədəniyyət və İstirahət park -** 1967-ci ildə Azərbaycan SSR Mədəniyyət Nazirliyinin 16 mart tarixli 64 saylı əmrinə əsasən mədəniyyət və istirahət parkı yaradıldı. 23 hektar dənizkənarı sahəni əhatə edən ərazidə küləyə, quraqlığa davamlığı olan 39 növ ağac – Eldar və Alp şamları, Ağcaqayın, Akasiya, Küknar, Qovaq ağacları və s. cərgələrə düzüldü. Yaşıllaşdırma yüksək ixtisaslı mütəxəssislərə – aqronomlara, bağbanlara həvalə edildi. Şəhər əhalisinin sağlamlığında parkın yaşıl ərazisi ilə yanaşı, çimərlik zonası da əhəmiyyətli rol oynayır. İldən-ilə genişlənən, gözəlləşən parka 17 avqust 1978-ci ildə dahi Azərbaycan şairi Nəsiminin adı verilmişdir. Elə həmin ildə V. Nəzirov və A. Quliyevin müəllifi olduğu "Sülh göyərçini" abidəsinin qoyulması parkı daha da gözəlləşdirdi.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02.08.2001-ci il tarixli 132 saylı qərarına əsasən, İ. Nəsimi adına mədəniyyət və istirahət parkı ölkə əhəmiyyətli tarix və mədəniyyət abidələri siyahısına daxil edilmişdir.